*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 516-524*

https://doi.org/10.62837/2025.6.516

**LEYLA ZİYAFƏT QIZI HƏSƏNOVA**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*Filologiya fakültəsi, müəllim.*
*Orcid İd: 0009-0006-9057-9205*

# SOSİALIST REALİZMİ POEZİYASINDA ROMANTİZM ƏNƏNƏLƏRİ

**XÜLASƏ**

XX əsrin 30-cu illərindən başlayaraq ədəbiyyatda vahid cərəyan elan edilən sosialist realizminin əsas məqsədi sovet hakimiyyətini və kommunist partiyasını təbliğ etmək idi. Lakin həmin dövrdə yaşayıb yaratmış ayrı-ayrı sənətkarlarımızın yaradıcılığına nəzər saldığımız zaman, sosrealizmin tərkibində romantizm cərəyanının ənənə şəklində öz mövcudluğunu sürdürdüyünün şahidi oluruq. Bu bir daha sübut edir ki, həmin dövrdə milli ədəbiyyatımız hər nə qədər sıxışdırılsa da, çox ciddi senzuralara məruz qalsa da, romantizm tamamilə ədəbiyyatdan ayrılmamış, xüsusilə də poeziyada öz varlığını qoruyub saxlaya bilmişdir. Məqalədə sosialist realizmi ilə romantizmin birləşdiyi nöqtələr və onların Azərbaycan poeziyasında təzahürü barədə dolğun məlumatlar verilmiş, Azərbaycan poeziyasında sosialist realizmi və onun tərkibində romantizm ənənələrinin təzahürü ətraflı şəkildə tədqiqata cəlb olunmuşdur. Xüsusilə də, Əhməd Cavad, Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm kimi sənətkarlarımızın yaradıcılıqlarında bu izlər təhlil edilib, aydınlaşdırılmışdır.

**Açar sözlər:** sosialist realizmi, ədəbi cərəyanlar, romantizm, poeziya, inqilabi romantika

**HASANOVA LEYLA**

## ROMANTICISM TRADITIONS IN THE POETRY OF SOCIALIST REALISM.

**SUMMARY**

The main goal of socialist realism, which was declared a single trend in literature starting from the 30s of the 20th century, was to promote the Soviet government and the communist party. However, when we look at the creativity of our individual artists who lived and created during that period, we witness that the romanticism trend continued to exist as a tradition within socialist realism. This proves once again that no matter how much our national literature was suppressed and subjected to very serious censorship during that period, romanticism was not completely separated from literature, and was able to preserve its existence, especially in poetry. The article provides detailed information about the points where socialist realism and romanticism converge and their manifestation in Azerbaijani poetry, and socialist realism in Azerbaijani poetry and the manifestation of

romanticism traditions within it are studied in detail. In particular, these traces in the works of our artists such as Ahmad Javad, Samad Vurgun, Mikayil Mushfig, Suleiman Rustam are analyzed and clarified.

**Keywords:** socialist realism, literary trends, romanticism, poetry, revolutionary romanticism

**ГАСАНОВА ЛЕЙЛА**

**РОМАНТИЧЕСКИЕ ТРАДИЦИИ В ПОЭЗИИ СОЦИАЛИСТИЧЕСКОГО РЕАЛИЗМА.**

**АННОТАЦИЯ**

Главной целью социалистического реализма, провозглашённого единым направлением в литературе с 30-х годов XX века, была пропаганда Советской власти и Коммунистической партии. Однако, обращаясь к творчеству отдельных наших художников, живших и творивших в этот период, мы видим, что романтизм продолжал существовать как традиция внутри социалистического реализма. Это ещё раз доказывает, что, несмотря на все притеснения и жесточайшую цензуру нашей национальной литературы в тот период, романтизм не был полностью оторван от литературы и смог сохранить своё существование, особенно в поэзии. В статье подробно рассматриваются точки соприкосновения социалистического реализма и романтизма и их проявление в азербайджанской поэзии, а также подробно исследуется социалистический реализм в азербайджанской поэзии и проявление в ней традиций романтизма. В частности, анализируются и раскрываются эти следы в творчестве таких наших художников, как Ахмед Джавад, Самед Вургун, Микаил Мушфиг, Сулейман Рустам.

**Ключевые слова: с**оциалистический реализм, литературные течения, романтизм, поэзия, революционный романтизм

**Giriş**. Sosialist realizmi 1930-cu illərdə ədəbiyyatda mövcud olan əsas vahid ədəbi cərəyandır. Sovet hakimiyyəti qurulduqdan sonra yaranan bu cərəyan ədəbiyyatın ən mühüm cərəyanlarından biri olaraq ortaya çıxmışdır. Sosialist realizmi, əsasən Sovet Rusiyasında və digər sosialist ölkələrində inkişaf etmişdir. Bu cərəyanın əsas məqsədi, sosialist inqilabını və onun ideallarını ədəbiyyat və sənət vasitəsilə təbliğ etmək, cəmiyyəti sosializmin gücünə inandırmaq idi. Sosialist realizmi, real həyatı təbii şəkildə təqdim etməklə yanaşı, eyni zamanda gələcəyin parlaq sosialist cəmiyyətini idealizə edirdi. Proletar inqilabını və sosialist ideologiyasını təbliğ etmək, xalqın mübarizəsini və sosialist ideallarını ədəbiyyat vasitəsilə canlandırmaq yazıçıların əsas vəzifəsi hesab olunurdu. Bu səpkidə yazılan əsərlərdə, həmçinin, qəhrəmanlıq, xalqın əzmi və sosialist inqilabının gətirdiyi yeniliklər də geniş şəkildə təsvir olunurdu.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 516-524*

Romantizm cərəyanı dünya ədəbiyyatında 18-ci əsrdə yaranmağa başlayan və 19-cu əsrdə zirvəyə çatan bir ədəbi cərəyan idi. Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərində mövcud olan bu cərəyanın əsasını azadlıq istəyi, təbiətə olan vurğunluq, idealist düşüncələr və qəhrəmanlıq təşkil edirdi. Romantizm, insanın daxili aləmini, yüksək ideallarını və təbiətə olan sevgisini önə çıxarırdı. Sosialist realizminin formalaşdığı dövrə təsadüf edən ədəbiyyata romantizm hələ də çox güclü təsir göstərməkdə idi və sosialist realizmi ilə müəyyən paralellikləri var idi. Sosializm realizmin ədəbi və ideoloji məqsədlərinə xidmət edərkən, romantizmin də bəzi əsas xüsusiyyətləri bu cərəyanın içində yer almışdı.

**Əsas hissə.** Romantizm və sosializm realizmi arasında bir çox ortaq nöqtələr mövcuddur. Romantizmin təbiətə və fərdiyyətə olan vurğusu, sosializm realizminə təsir etmişdir. Sosialist realizminin ideyaları, romantizmin insan azadlığı və bərabərlik arzusuyla uyğunlaşaraq, sosialist cəmiyyətin yaratmaq istədiyi yeni insanın idealını təqdim etmişdir. Romantizmdəki ideallaşdırılmış qəhrəman təsviri sosializm realizminin də təməlini təşkil edir. Romantik şairlər qəhrəmanlarını əsasən insanın yüksək hisslərini, mübarizəsini və azadlıq istəyini göstərmək məqsədilə təqdim edirdilər. Sosializm realizmi də oxşar şəkildə sosialist inqilabını dəstəkləyən, xalqın rifahı üçün mübarizə aparan qəhrəmanları idealizə edirdi. Bu qəhrəmanlar, təkcə özlərinin deyil, bütün xalqın azadlığı və rifahı üçün mübarizə aparan şəxslər idi. Bundan əlavə, təbiət və sosial mühitin əlaqəsi romantizmdə xüsusi yer tutarkən, sosializm realizmində bu əlaqə işçi sinfinin və kəndli əhalisinin təbiət və ətraf mühitlə bağlı vəziyyətlərini göstərmək üçün istifadə olunurdu.

**Əhməd Cavad və romantizm**. "XX əsrin əvvələrində milli istiqlal ideyasının formalaşmasında AXC dövründə milli dövlətçilik şüurunun möhkəmlənməsində, milli və ictimai azadlığın itirildiyi sovet dönəmində istiqlal ideyasının ya şaya bilməsində Əhməd Cavad irsi, müstəsna rol oynamışdır." [1] Əhməd Cavad öz şeirlərində sosialist realizmi ilə romantizmin ənənələrini birləşdirərək, vətənpərvərlik və qəhrəmanlıq mövzularını hər zaman ön plana çəkmişdir. Şairin şeirlərindəki idealist yanaşma, onun zamanının inqilabi hərəkatları ilə sıx əlaqəlidir. Əhməd Cavad Azərbaycan ədəbiyyatında milli romantizmin aparıcı nümayəndələrindən idi. Onun poetik irsi klassik şeirin forma zənginliyi ilə yanaşı, romantik duyğuların, idealist düşüncələrin və milli təəssübkeşliyin üzvi vəhdəti ilə seçilir. Ə.Cavad poeziyasının əsas qayəsini romantizmin bədii-estetik prinsipləri – yüksək pafos, milli-vətənpərvərlik duyğuları, təbiətə vurğunluq və subyektiv lirizm təşkil edir. Şairin "Göygöl", "Azərbaycan bayrağına", "Dan ulduzu" kimi şeirlərində romantik ab-hava açıq-aydın sezilir. Bu əsərlərdə təbiət surətləri yalnız təsvir üçün deyil, həm də emosional yük, azadlıq ideyasının simvolu kimi təqdim olunur. Ə.Cavadın romantizmi yalnız təbiətə vurğunluq və yüksək hisslərlə məhdudlaşmır, eyni zamanda milli-mənəvi dəyərlərə bağlılıqla da ifadə olunur. O, millətinin azadlığını və müstəqilliyini romantik bir ideal kimi qəbul edir və bu ideyaları pafoslu, coşqun

poetik bir dillə oxucuya çatdırır. Ə.Cavadın romantizmi Avropa romantiklərindən fərqli olaraq yalnız fərdi hisslərin deyil, xalqın ümumi taleyinin bədii ifadəsinə yönəlmişdir. Onun şeirlərində fərdi duyğular ilə ictimai və milli hisslər birləşərək bütöv bir romantik dünya görüşü yaradır. Bu xüsusiyyət böyük şairi Azərbaycan poeziyasında romantik idealizmin əsas daşıyıcılarından birinə çevirir:

Dumanlı dağların yaşıl qoynunda
Bulmuş gözəllikdə kamalı Göygöl.
Yaşıl gərdənbəndi gözəl boynunda:
Əks etmiş dağların camalı Göygöl! [2, s. 230]

Şairin "Göygöl" şeirindən verilən yuxarıdakı nümunədə romantizmin əsas xüsusiyyətləri olan təbiətə bağlılıq, duyğusal və estetik hisslərə yönəlmə və xalq mədəniyyətinin təbliği kimi elementlər diqqəti çəkir. Ə.Cavad dumanlı dağların yaşıl qoynunda olan Göygölün gözəlliyini təbiətə aid olan müxtəlif təsvirlərlə təqdim edir. Bu, təbiətin bir simvol olaraq insanın daxili aləmi ilə əlaqəli olduğunu vurğulayan romantik bir yanaşmadır. Azərbaycan romantizminin digər bir xüsusi əlaməti də poeziyada milli kimliyin, xalqın və onun təbiətinin ön plana çıxarılmasıdır. Burada da Göygöl, Azərbaycan təbiətinin gözəlliyini və bu gözəlliyin xalqın ruhunu necə formalaşdırdığını simvollaşdırır. Romantik şairlər, təbiəti idealizə edərək, orada mükəmməllik və gözəllik axtarırdılar. Əhməd Cavad da Göygölün təbiətini mükəmməl şəkildə təsvir edir. Dağların və suyun əks olunması, təbiət səhnələrinin mükəmməl bir şəkildə təqdim olunması romantizmin idealizm anlayışını əks etdirir. Şeirdə bütün bu nüanslar romantizmin mədəni və milli ənənələrə uyğun bir yanaşması kimi təzahür edir. "Göy göl Ə.Cavad üçün sadəcə bir sututar, yaxud bir qədər də geniş mənada coğrafi obyekt deyildi. Bu nadir təbiət hadisəsini şair doğma Gəncənin, bütün Azərbaycanın – Vətəninin rəmzi kimi tərənnüm etmişdi və bu rəmz, bu vətən obrazı onun şair təxəyyülündə əbədilik yer tutmuşdu. Adını çəkdiyi üçün qara-borana düşdüyü Göy göl şair həbsxanada olanda da, çoxlu cəfələr çəkdiyinə baxmayaraq, onu tərk etməmişdi." [9, s. 68]

**Səməd Vurğun və romantizm**. Səməd Vurğun Azərbaycan poeziyasının ən böyük nümayəndələrindən biri kimi, romantizmin ənənələrini öz əsərlərində yaşatmağı bacarmış bir sənətkardır. Vurğunun şeirlərində təbiət təsvirləri, xalq sevgisi, qəhrəmanlıq və mübarizə ideyaları geniş yer tutur. Onun bir çox şeirlərində insanın yüksək ideallar uğrunda mübarizəsi, inqilab ruhu və sosialist idealarının təbliği romantik bir şəkildə əks olunur. Sosialist realizmi çərçivəsində Vurğun, bu romantik elementləri xalqın mübarizəsinə və sosialist ideallarına xidmət edən bir şəkildə inkişaf etdirmişdir. S.Vurğunun yaradıcılığının erkən dövrü – xüsusilə 1920–30-cu illər – romantik duyğuların, qəhrəmanlıq obrazlarının və ideallaşdırılmış insan konsepsiyasının qabarıq şəkildə özünü göstərdiyi bir mərhələdir. "30-cu illərin

ortalarında Səməd Vurğun poeziyasında fəlsəfi düşüncələr güclənməyə, dünya, zaman, dövran, insan haqqında fikirlər formalaşmağa başlayır.”[7] Vurğunun romantizmlə əlaqəsi, ilk növbədə, onun ədəbiyyatda ideal insana, yüksək mənəviyyata və mənəvi təmizliyə olan inamında təzahür edir. Şair, reallığı bütün çılpaqlığı ilə deyil, arzulanan, olması gərəkən formada təqdim edirdi. Bu yanaşma romantizmin əsas prinsiplərindən biridir. Vurğunun şah əsəri hesab olunan “Azərbaycan” şeirində də qeyd olunan məqamlar özünün aydın ifadəsini tapır. Şeirdə vətənə sevgi, qəhrəmanlıq və fədakarlıq kimi mövzular romantik bir ruhla əks olunmuşdur:

Ey azad gün, azad insan,
Doyunca iç bu bahardan!
Bizim xalı-xalçalardan
Sar çinarlar kölgəsinə,
Alqış günəş ölkəsinə! [11, s. 79]

Romantizm cərəyanının ən vacib ideya-istiqamətlərindən biri insanın azadlıq və müstəqillik arzusudur. Şairin burada “azad gün, azad insan” ifadəsi, romantizmin idealizminə və insanın özünü sərbəst şəkildə ifadə etmə istəyinə uyğun gəlir. S.Vurğun burada insanın azadlığına və onun həyatda öz yolunu tapmasına vurğu edir. Bu, romantizmin cəmiyyətin və təbiətin sərhədlərini aşma və insanın müstəqil yaşamaq istəyi ilə bağlı ideallarını əks etdirir. Şair, təbiət və insanın harmoniya içində yaşaması arzusunu və bu arzu ilə əlaqəli olan milli və azadlıq idealını vurğulayır. Bu da romantizmin əsas məqsədini, yəni insanın öz iç dünyası ilə təbiət arasında sıx əlaqə qurmasını və həm də xalqın milli kimliyini ifadə etmək istəyi ilə bağlı özünü göstərir. Romantizmin ən mühüm xüsusiyyətlərindən biri də təbiət ilə insan arasında mövcud olan emosional və estetik əlaqədir. Vurğunun şeirində təbiət, xüsusilə “bahar”, “çinarlar” ifadələri ilə təsvir edilir. Bu, təbiətin gözəlliyinin və həyatın təzəliyinin insanın azad ruhu ilə necə əlaqəli olduğunu göstərir. Baharın təzəlik və canlanma simvolu olması, romantizmin təbiətin insan həyatına və ruhuna təsirini göstərən bir motivdir. Romantik şairlər, xalq mədəniyyətinin, ənənələrinin və təbiətinin təbliğinə xüsusi əhəmiyyət verirdilər. Səməd Vurğun şeirində “xalı-xalçalar”, “çinarlar kölgəsi” və “günəş ölkəsi” kimi milli motivlərə yer verilir. Bu ifadələr, təbiət və milli mədəniyyət arasındakı əlaqəni və xalqın özünün tarixi və mədəni köklərinə olan bağlılığını göstərir. “Çinarlar” həm də Azərbaycanın simvollarından biri kimi, xalqın gücünü və tarixini simvollaşdırır. “Ümumiyyətlə, təbiət şairin poeziyasında vətənin rəmzi və ən qüdrətli ilham mənbəyi idi. “Təbiət ilhama çağırır məni” leytmotivi Səməd Vurğun şeirinin ana xəttidir desək yanılmarıq”. [7]

Səməd Vurğun romantik poeziyada sadəcə duyğusal qavrayışla kifayətlənməyib, onu ideoloji və ictimai-fəlsəfi məna ilə zənginləşdirmişdir. Romantik poeziyada ənənəvi qəhrəman tipi – idealist, yüksək əxlaq sahibi, cəsarətli və cəmiyyət üçün çalışan şəxs – Vurğunun əsərlərində əsas obraz kimi qarşımıza çıxır. Bu baxımdan, onun əsərləri həm romantizmin klassik elementlərini daşıyır, həm də Azərbaycan reallıqları ilə uyğunlaşdırılmış bir romantizm modelini təqdim edir. Xalq şairi klassik romantizmin ruhunu sovet dövrü ədəbiyyatının tələbləri ilə sintez edərək, milli poeziyamızda bənzərsiz bir ədəbi üslub yaratmışdır.

**Mikayıl Müşfiq və romantizm.** Əsrin əvvəllərində mövcud olan romantizm cərəyanının təsirində olan və bu səpkidə rəngarəng poetik nümunələr yazıb ərsəyə gətirən bir başqa sənətkarımız da Mikayıl Müşfiqdir. Müşfiqin yaradıcılığında romantik motivlər daha çox cəsarət və millət sevgisi kimi məsələlərdə özünü göstərir. Şairin şeirlərində qəhrəmanlıq və azadlıq arzusu yüksək ideallar ilə birləşərək sosialist realizmi çərçivəsində mübarizəni təbliğ edir. Ümumiyyətlə, Azərbaycan poeziyasının incisi sayılan Mikayıl Müşfiqin şeirlərində romantizm yalnız bir metod olaraq deyil, həm də bir dünyagörüşü, bir həyat tərzi kimi özünü göstərir. Şairin yaradıcılığı həm forma, həm də məzmun baxımından romantik xüsusiyyətlərlə zəngindir. O, insanın daxili aləmini, duyğularını, təbiətə və sevgiyə olan bağlılığını poetik dillə ifadə etmişdir. M.Müşfiq klassik və folklor ənənələrindən bəhrələnmiş, lakin onları müasir duyumla sintez edərək milli poeziyaya yeni nəfəs gətirmişdir. Şairin şeirlərində romantizmin əsas əlamətləri – emosionallıq, gözəlliyə və ideala meyl, təbiətə sevgi, azadlıq arzusu və fərdi hisslərin önə çəkilməsi açıq-aydın hiss olunur. “Yenə o bağ olaydı…”, “Oxu tar”, “Ana”, “Sənin gülüşlərin”, “Sənin gözlərin” kimi şeirləri şairin romantik təbiətini, duyğularının incəliyini və səmimiliyini əks etdirən nümunələrdir. Adları qeyd olunan şeirlərdə həm sevgi, həm təbiətə bağlılıq, həm də vətənə duyulan məhəbbət romantik bir dillə ifadə olunmuşdur. Müşfiq romantizmi təkcə sevgi mövzusunda deyil, ümumilikdə həyatın mənəvi dəyərlərində axtarırdı. M.Müşfiqin şeirlərində, təbiət və insan arasında mövcud olan emosional əlaqəni, duyğusal dərinliyi və zamanın keçməsindən doğan təəssüratları romantik yanaşma ilə təqdim edir. Bu cəhətdən şairin “Yenə o bağ olaydı” şeiri xüsusi diqqəti çəkir:

Yenə o bağ olaydı sevdalar ölkəsində,
O söyüd kölgəsində.
İnci qumlar üstündə yenə verib baş-başa,
Yayı vuraydıq başa.
Günlərimiz keçəydi qızğın fərəhlər kimi,
Dolu qədəhlər kimi.
Yarpaqlar arasından uzadaraq əlini,
Oxşayaraq telini. [8, s. 165]

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 516-524*

Burada sanki təbiət insanın duyğularını canlandıran bir "arxa plan" kimi çıxış edir. "O söyüd kölgəsində", "inci qumlar üstündə" ifadələri, təbiətin insanların gözəl və romantik anlarına məkan yaratdığı ideyasını təmsil edir. Bu, romantizmin təbiətin insan həyatındakı rolunu önə çıxaran əsas xüsusiyyətinə uyğun gəlir. Romantizm dövrünün xüsusiyyətlərindən biri də keçmişə və idealizedilmiş zamanlara olan nostaljidir. Mikayıl Müşfiqin şeirində "yenə o bağ olaydı" və "yayı vuraydıq başa" kimi ifadələr, keçmişdəki bir zamanın və vəziyyətin arzusunu ifadə edir. Bu, romantizmin əhəmiyyətli bir elementidir: ideal bir zamanın və mükəmməl bir dünyanın axtarılması. Şair keçmişdəki gözəl anları xatırlayır və həmin anları yenidən yaşamağı arzulayır. Bu isə, romantizmin təbiət və zamanla əlaqəli olan ideallarını əks etdirir. Əsərdə keçmişdəki bir zamanın və vəziyyətin arzusu ifadə olunur. Bu, romantizmin əhəmiyyətli bir elementidir: ideal bir zamanın və mükəmməl bir dünyanın axtarılması. Şair keçmişdəki gözəl anları xatırlayır və həmin anları yenidən yaşamağı arzulayır. Təbiət və sevgi arasındakı əlaqə, keçmişə və ideallaşdırılmış zamana olan nostalji, estetik və duyğusal təsvirlər romantizmin ənənələrini şeirdə canlı şəkildə nümayiş etdirir. "Mikayıl Müşfiqi bütün nəsillərin müasiri edən, həmişə sevdirən onun ürəkdəngəlmiş, səmimiyyətlə dolu poeziyasının xalq ruhu ilə bağlılığı, Azərbaycanımızı böyük məhəbbətlə tərənnüm edib sevdirməsi, vətəndaşlığı və cazibə qüvvəsilə oxucuların qəlbini ehtirasa gətirməsidir."[4]

**Süleyman Rüstəm və romantizm.** Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Süleyman Rüstəm, sosializm realizmi ilə yanaşı, romantizmin elementlərini də öz şeirlərində saxlamışdır. "O nəğmələrinin birində özünə "Beş-altı nəğmənin müəllifi"deyirdi. Əslində XX əsr Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biri idi. Yüzlərlə kitabın, on minlərlə şeirin, poemanın müəllifi Süleyman Rüstəm zamanın sınağından alnıaçıq, üzüağ çıxdı." [6] Şairin əsərlərində təbii gözəlliklər, milli mübarizə, qəhrəmanlıq və azadlıq kimi milli romantik mövzuları ön planda verilmişdir. S.Rüstəmin şeirlərində həyat və təbiət çox zaman idealizə olunaraq oxucuya təqdim olunur. Xüsusilə "gecənin romantikası" və "şairin qəmli arzusu" kimi şeirlərində insanların əzabları, arzu etdikləri mübarizə və azadlıq romantik bir dillə təsvir edilir. Şair öz poeziyasında qəhrəmanları ideallaşdırır. Xalqın azadlıq uğrunda mübarizəsi və qəhrəmanlıq dolu mübarizələri sosializm realizmi çərçivəsində romantik şəkildə təqdim olunur. "Bizim cəmiyyətimizin hər bir üzvünün həyatı romantikadır. Onda yeniliyə, biliyə bir faust həvəsi vardır. O, yerdə möhkəm dayanaraq, xəyalına qanad verir, xəyalı gecəli-gündüzlü gəzinərək yurdumuzu bir daha güldürmək, bir daha sevindirmək üçün axtarır, arayır, yeni qələbələr əldə edir." [5, s. 52] Süleyman Rüstəmin əsərlərində təbiət tərənnüm olunur və romantizmin təbiətə olan sevgisi şeirlərində güclü şəkildə öz əksini tapır. Bu cəhətdən şairin "mənim fəlsəfəm" şeirinə nəzər salaq:

Düyünlü sözlərdən heç gəlməz xoşum,
Aydın həqiqətdir mənim fəlsəfəm.
Vətənə, millətə, qardaş ellərə
Dərin məhəbbətdir mənim fəlsəfəm. [10, s. 17]

Romantizm dövründə şairlər, məhz duyğusal və estetik ifadələrin ardında fəlsəfi düşüncələrə də yer verirdilər. Süleyman Rüstəm də öz şeirində fəlsəfi düşüncələrini ortaya qoyur: "Aydın həqiqətdir mənim fəlsəfəm" deyərək, şair dünyaya və həyatına sadə, amma dərin bir yanaşma nümayiş etdirir. Romantizmin bu xüsusiyyəti, həqiqətin və insanın iç dünyasının aydın olmasına, həm də bunun təbiətlə birləşməsinə verdiyi əhəmiyyəti göstərir. Milli romantizmin əsas xüsusiyyətlərindən biri vətənə, xalqa və milli kimliyə dərin bağlılıqdır. Süleyman Rüstəm şeirində vətənə, millətə və qardaş ellərə olan məhəbbətinə vurğu edərək, "Vətənə, millətə, qardaş ellərə / Dərin məhəbbətdir mənim fəlsəfəm"deyir. Bu ifadə, romantizmin milli kimlik və xalq sevgisinə verdiyi önəmi çox aydın şəkildə göstərir. Romantizmin əlamətlərindən biri də idealizm və duyğusal yanaşmadır. Şair öz şeirində duyğularını və arzularını idealist bir şəkildə cəsarətlə təqdim edir. "Dərin məhəbbətdir mənim fəlsəfəm" ifadəsi, şairin daxili dünyasında, idealizə edilmiş bir sevgi və bağlılıq hissini ortaya qoyur. Bu, romantizmin ənənələrindən olan, insanın yüksək və ideallaşdırılmış hissləri ilə təbiət və dünya arasında harmoniya yaratma istəyini əks etdirir.Süleyman Rüstəm, şeirin hər bir misrasında həm insanın sevgisini, həm də təbiətin və xalqın bu sevgi ilə necə birləşdiyini göstərir. "Mahnıya çevrilmiş bu şeirlərin hər birində sevən ürək, vətən məhəbbəti, incə yumor diqqəti çəkir, insanda nikbin əhval-ruhiyyə yaradır." [6]

**Nəticə**. 1920-1950-ci illər Azərbaycan poeziyasında sosialist realizmi dominant üslub olsa da, romantizm ənənələri tamamilə ədəbiyyatdan, xüsusilə də poeziyadan silinməyib. Səməd Vurğunun qəhrəmanlıq ruhu, Mikayıl Müşfiqin lirizmi, Əhməd Cavadın vətən sevgisi və Süleyman Rüstəmin emosional təsvirləri bu dövrün poeziyasında romantizmin hələ də mövcud olduğunu göstərir. Xüsusilə, gələcəyə ümid, qəhrəmanların idealizasiyası və coşqun lirizm sosialist realizmində romantizmin izləri kimi özünü göstərmişdir. Bu da sübut edir ki, ideoloji nəzarətin mövcud olduğu, repressiyanın tüğyan etdiyi dövrdə belə, romantizm ədəbiyyatda özünü fərqli bir tərzdə qoruyub saxlamış, Azərbaycan poeziyasında sosialist realizmi ilə romantizmin ənənələri birləşərək zəngin bir ədəbi mühit yaratmışdır. Əhməd Cavad, Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm kimi sənətkatlarımızın əsərlərində romantizmin əsas elementləri - qəhrəmanlıq, idealizm, təbiətə sevgi və azadlıq arzusu - sosialist realizminin çərçivəsində inkişaf etmişdir. Adları qeyd olunan şairlər, sosialist realizmi çərçivəsində xalqın mübarizəsini və yüksək ideallarını təbliğ edərkən, romantizmin poeziyasına dair əhəmiyyətli ənənələri

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 516-524*

qorumağı bacarmışlar. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında romantizm cərəyanı yalnız bir bədii istiqamət deyil, həm də milli-mənəvi özünüdərk və azadlıq uğrunda mübarizənin poetik ifadəsi olmuşdur. Bu baxımdan XX əsr şairlərimizin bir çoxu romantizmi Azərbaycan poeziyasının inkişafında aparıcı istiqamətə çevirmişlər. Bu isə Azərbaycan poeziyasında romantizmin güclü və davamlı ənənəyə çevrilməsinə səbəb olmuşdur.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Abidqızı G. Əhməd Cavad 125 // Ədalət, 2017 3 may, s.3
2. Cavad Ə. Seçilmiş əsərləri, 2 cilddə, I cild. Bakı: Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya birliyi, 1992, 326 s.
3. Ədalətqızı S. Əhməd Cavad haqqında xatirələr. Bakı: Xan, 2018, 92 s.
4. Ələddinqızı N. Ürəklərdə yuva salan Mikayıl Müşfiq // Səs, 2018 22may, s.13
5. Xəyal S. Süleyman Rüstəm 100, Bakı: Elm və Təhsil, 2012, 156 s.
6. Xiləli A. Süleyman Rüstəm -110 // Ədəbiyyat qəzeti, 2016 / 12 mart, s.2
7. Qədirova M. Səməd Vurğunun yaradıcılığında romantika // Dil və ədəbiyyat: beynəlxalq elmi-nəzəri jurnal, 2017 N3, s.137-140
8. Müşfiq M. Seçilmiş əsərləri, 2 cilddə, I cild. Bakı: Azərbaycan Dövlıt Nəşriyyatı, 1957, 190 s.
9. Nəbiyeb B. Əhməd Cavad. Bakı: Ozan, 2004, 128 s.
10. Rüstəm S. Seçilmiş əsərləri. 3 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2005, 262 s.
11. Vurğun S. Seçilmiş əsərləri. Bakı: Adiloğlu nəşriyyatı, 2004, 382 s.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Razim Məmmədov**